**“Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikasının 2013-cü il 13 iyun tarixli 686-IVQ nömrəli Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 9 iyun tarixli 187 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“İstehlak bazarına nəzarət, standartlaşdırma, metrologiya və əqli mülkiyyət hüquqları obyektlərinin mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 aprel tarixli 5 nömrəli Sərəncamının 8.4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikasının 2013-cü il 13 iyun tarixli 686-IVQ nömrəli Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 9 iyun tarixli 187 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 741; 2017, № 12 (II kitab), maddə 2528) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - “Ölçmələrin vəhdətinin təmin edilməsinin dövlət tənzimlənməsinə aid olan ölçmə metodikalarının (metodlarının) attestasiyası və tətbiqi Qaydası”nın 1.3.5-ci yarımbəndində “Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi (bundan sonra – Komitə)” sözləri “Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra – Agentlik)” sözləri ilə, 3.4.1-ci yarımbəndinin ikinci cümləsində “Komitə” sözü “Agentlik” sözü ilə əvəz edilsin.

2. Həmin qərarla təsdiq edilmiş 4 nömrəli əlavə - “Texniki vasitələrin ölçmə vasitələrinə aid edilməsi Qaydası”nın 2.1-ci bəndində “Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi (bundan sonra – Komitə)” sözləri “Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra – Agentlik)” sözləri ilə, 2.2-ci, 2.3-cü bəndlərində, 2.5-ci bəndinin birinci cümləsində, 2.7-ci və 2.8-ci bəndlərində ismin müvafiq hallarında “Komitə” sözü ismin müvafiq hallarında “Agentlik” sözü ilə əvəz edilsin.

3. Həmin qərarla təsdiq edilmiş 5 nömrəli əlavədə “Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi” sözləri “Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin.

4. Həmin qərarla təsdiq edilmiş 6 nömrəli əlavə - “Tipi təsdiq edilmiş standart nümunələrin və ölçmə vasitələrinin dövlət reyestrinin aparılması Qaydası”nın 1.2-ci bəndində “Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi (bundan sonra – Komitə)” sözləri “Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra – Agentlik)” sözləri ilə, 2.1.7-ci və 2.2.6-cı yarımbəndlərində, 2.3-cü bəndində, 3.1.2-ci və 3.1.3-cü yarımbəndlərində (hər iki halda), 4.2-ci (hər iki halda), 5.1-ci bəndlərində, 5.2.1.4-cü yarımbəndində, 6.1-ci bəndində, 6.2-ci (hər iki halda) bəndində, həmin Qaydaya əlavənin “Ölçmə vasitələrinin dövlət reyestri kitabının forması”nın 8-ci və “Standart

nümunələrin dövlət reyestri kitabının forması"nın 7-ci sütunlarında "Komitənin" sözü "Agentliyin" sözü ilə əvəz edilsin.

5. Həmin qərarla təsdiq edilmiş 7 nömrəli əlavə - "Standart nümunələrin və ya ölçmə vasitələrinin tipinin təsdiqi məqsədi ilə sınaqların keçirilməsi, standart nümunələrin və ya ölçmə vasitələrinin tipinin təsdiqi, bu barədə sertifikatın verilməsi, ölçmə vasitələrinin yoxlamalararası intervalının müəyyən edilməsi və dəyişdirilməsi qaydası, standart nümunələrin və ölçmə vasitələrinin tipini təsdiq edən nişanlara dair tələblər və həmin nişanların vurulma Qaydası"nın 1.4-cü bəndinin birinci cümləsində "Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinə (bundan sonra – Komitə)" sözləri "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə (bundan sonra – Agentlik)" sözləri ilə, 1.5-ci bəndində, 3.1-ci bəndinin birinci və ikinci cümlələrində, 4.3-cü və 6.1-ci bəndlərində ismin müvafiq hallarında "Komitə" sözü ismin müvafiq hallarında "Agentlik" sözü ilə əvəz edilsin.

6. Həmin qərarla təsdiq edilmiş 8 nömrəli əlavə - "Layihə-konstruktor və texnoloji sənədlərin məcburi metroloji ekspertizasının keçirilməsi Qaydası" üzrə:

6.1. 2.1-ci bənddə "Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi (bundan sonra - Komitə) tərəfindən" sözləri "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq" sözləri ilə əvəz edilsin;

6.2. 3.1-ci bəndin birinci cümləsində "Komitəyə" sözü "Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə (bundan sonra – Agentlik)" sözləri ilə əvəz edilsin;

6.3. 3.1-ci bəndin ikinci, üçüncü cümlələrində və 3.2-ci bənddə ismin müvafiq hallarında "Komitə" sözü ismin müvafiq hallarında "Agentlik" sözü ilə əvəz edilsin.

7. Həmin qərarla təsdiq edilmiş 10 nömrəli əlavə - "Ölçmələrin vəhdətinin təmin edilməsi üzrə dövlət məlumat fondunun təşkili və aparılması, məlumatların fonda verilməsi, fonddan sənədlərin və məlumatların təqdim edilməsi Qaydası" üzrə:

7.1. 1.3-cü bənddə "Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi (bundan sonra - Komitə)" sözləri "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra – Agentlik)" sözləri ilə əvəz edilsin;

7.2. 2.2-ci bəndin birinci cümləsində, 2.4-cü bəndin ikinci cümləsində, 2.5-ci və 2.7-ci bəndlərdə ismin müvafiq hallarında "Komitə" sözü ismin müvafiq hallarında "Agentlik" sözü ilə əvəz edilsin.

8. Həmin qərarla təsdiq edilmiş 11 nömrəli əlavə - "Ölçmə vasitələrinin kalibrlənməsi işlərini yerinə yetirmək, kalibrlənmə haqqında sertifikat vermək və ya kalibrlənmə nişanını vurmaq hüququnun verilməsi Qaydası və kalibrlənmə işlərinin yerinə yetirilməsinə dair Tələblər"in 1.4-cü bəndində "Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi (bundan sonra – Komitə)" sözləri "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra – Agentlik)" sözləri ilə, 2.1-ci və 2.2-ci bəndlərində, 3.4.3-

cü yarımbəndinin ikinci cümləsində ismin müvafiq hallarında “Komitə” sözü ismin müvafiq hallarında “Agentlik” sözü ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının Baş naziri Novruz MƏMMƏDOV**

Bakı şəhəri, 30 avqust 2018-ci il
№ 366